**Rəşad Əflatun oğlu Qarayev**

**UOT:330.47:334.7; JEL:M21;L26;F44.**

# Srtateji yol xəritəsinə uyğun sahibkarlığın inkişafi proseslərində biznes mühitinin rəqəmsallaşdırılması istiqamətləri

***Xülasə***

*Tədqiqatın məqsədi – hazırda icrası davam edən srtateji yol xəritəsinə uyğun sahibkarlığın inkişafi proseslərində biznes mühitinin rəqəmsallaşdırılması istiqamətlərinin müəyyənləşməsidir. Belə ki, son illərdə milli iqtisadiyyatın müxtəlif sahələrində İKT-nin tətbiqi sayəsində sahibkarlıq subyektlərinin səmərəli fəaliyyət göstərmələri ilə bağlı işlər genişlənməkdədir. Yüksək texnologiyaların, ilk növbədə rəqəmsal mexanizmlərin fəal şəkildə tətbiq olunması sahibkarlığın inkişafı üçün yeni imkanlar açır. Rəqəmsal texnologiyalar məhsuldarlığın artımına və xərclərin optimallaşdırılmasına müsbət təsir göstərir və nəticədə səmərəlilik problemlərinin həllində yeni yanaşmalar formalaşır. Bütün bu amillər nəzərə alınmaqla sahibkarlığın yüksək texnologiyalar əsasında, xüsusilə rəqəmsal mexanizmlər üzrə inkişafının dərinləşdirilməsi istiqamətləri əsaslandırılmışdır. Tədqiqatın metodologiyası kimi – tədqiq olunan problemlərin açıqlanmasında və həlli yollarının müəyyənləşdirilməsində təhlil və sintez, müqayisə, statistik metodlardan istifadə olunmuşdur. Bunlarla bərabər, sahibkarlığın inkişafi üzrə biznes mühitinin elektronlaşdırılması, rəqəmsal texnologiyaların fəal şəkildə tətbiq olunması və məhsuldarlığın artırılmasında informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə edilməsi üzrə alim və tədqiqatçıların əsərlərindəki fikirlər də metodoloji yanaşmalar kimi götürülmüşdür. Tədqiqatın tətbiqi əhəmiyyəti – əsaslandırılmış və ümumiləşdirilmiş nəticələrdən Azərbaycanda sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması və biznes mühütinin rəqəmsallaşdırılması proseslərinin intensivləşdirilməsi üzrə daha təsirli tədbirlərinin görülməsi üçün fəaliyyət strategiyalarının hazırlanmasında istifadə olunmaq perspektivi ilə əlaqəlidir. Tədqiqatın nəticələri – növbəti illərdə ölkəmizdə sahibkarlığın inkişafının sürətləndirilməsi və biznes mühitinin yaxşılaşdırılması proseslərində rəqəmsal texnologiyalar hesabına daha təsirli və məhsuldar mexanizmlərinin işlənməsi və tətbiq oluması ilə bağlıdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – işdə verilmiş materiallar və şərhlər son illərdə strateji yol xəritələrinin icrası proseslərində həyata keçirilən tədbirlər konteksində baxılmış və müəllif yanaşmaları ilə zənginləşdirilmişdir, buna görə də, məqalədə verilən materiallar əsasən orijinal xarakter daşıyır. Əsas elmi yenilik müasir dövrdə qlobal çağırışlar şəraitində starteji yol xəritələrinin hədəflərindən çıxış etməklə, Azərbaycanda sahibkarlığın inkişafı proseslərində biznes mühitinin rəqəmsallaşdırılması iqtiqamətlərinə konseptual yanaşmaların təmin olunması və bununla bağlı tədbirlərin sistemli şəkildə həyata keçirilməsinin vacibliyinin əsaslandırılmasıdır. Yüksək texnologiyaların inkişaf etdiyi bir dövrdə sahibkarlıq fəaliyyətinin və biznes mühitinin səmərəliliyinin yüksəldilməsində rəqəmsal mexanizmlərinin starteji əhəmiyyəti ciddi elmi arqumentlərlə verilmişdir. Baxılan problemlər üzrə əsaslandırılmış tövsiyələr verilmiş və təkliflər irəli sürülmüşdür.*

***Açar sözləri:*** *strateji yol xəritəsi, sahibkarlıq, biznes mühiti, rəqəmsal texnologiyalar, rəqəmsal mexanizmlər, elektron xidmətlər, "ağıllı" texnologiyalar, yüksək texnologiyalar.*

## Giriş

Müasir qlobal tendensiyaların dərinləşdiyi bir dövrdə sahibkarlıq fəaliyyətinin inkişaf istiqamətlərinin və prioritetlərinin xüsusi olaraq nəzərə alınması vacib məsələlər kimi xarkaterizə olunur. Belə bir şəraitdə sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması

*©Rəşad Əflatun oğlu Qarayev Gəncə Dövlət Universiteti, doktorant. E-mail: reshad.garaev@gmail.com*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

problemləri bir qrup amillərə və məsələlərə sistemli, həmçinin kompleks yanaşmanı şərtləndirir. Məlumdur ki, sahibkarlıq fəaliyyətinin təşkili üçün, ilk növbədə ölkədə müvafiq şərait yaradılmalı, makroiqtisadi və makromaliyyə sabitliyi təmin olunmalı, iqtisadi fəaliyyətin təşkili və inkişafı üçün biznes mühiti formalaşdırılmalı və yaxşılaşdırılmalıdır. Bu sırada xüsusi diqqət tələb edən məsələlərdən biri sahibkarlıq fəaliyyətinin hüquqi-normativ bazasının formalaşdırılması, gücləndirilməsi və tələb olunan ölkə qanunlarının hazırlanaraq qəbul olunmasından ibarətdir. Bundan əlavə, qlobal rəqəmsal proseslərin sürətləndiyi bir şəraitdə isə başlıca məsələlərdən biri sahibkarlıq fəaliyyətində rəqəmsallaşmanın maksimum optimal olaraq tətbiq edilməsi, biznes mühitinin elektronlaşdırılması tələb olunur. Qlobal məkanda iqtisadiyyatın rəqəmsallaşması kifayət qədər sürətlənməkdədir və müxtəlif iqtisadiyyat sahələrində rəqəmsallaşma, elektron həllərin tətbiqi intensiv xarakter almaqdadır [1]. Digər tərəfdən, rəqəmsal texnologiyalar sosial-iqtisadi proseslərin ahəngdarlığını da tamamilə dəyişməkdədir. Gündəlik həyatımızı elektron aparatlar, mobil texnologiyalar və digər rəqəmsal vasitələrsiz təsəvvür etmək qeyri-mümkündür. Eyni zamanda, rəqəmsal texnologiyalar sosial-iqtisadi inkişaf məsələlərinə tamamilə yeni yanaşmaların formalaşdırılmasında önəmli amillər kimi diqqət çəkirlər [2]. Qlobal təhdidlər səbəbindən milli iqtisadiyyatın inkişafına, onun strukturuna, maliyyə sabitliyinə təhlükələr artmaqdadır və xüsusilə kiberhücumlar genişlənməkdədir, bununla yanaşı, informasiya təhlükəsizliyi məsələləri maksimum aktuallıq həddinə çatmışdır. Ölkə iqtisadiyyatının yüksək və "ağıllı" texnologiyalar əsasında inkişaf etdirilməsi infrastrukturu yaradılmalı və bu istiqamətlərdə əsaslı zəmin formalaşdırılmalıdır [3]. Bunlarla bərabər, ölkədə təbii və iqtisadi resursların mərkəzi və regional səviyyədə idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı üçün tələb olunan müvafiq şəraitin yaradılması, sahibkarlıq subyektlərinin iqtisadi-təşkilati, hüquqi, maliyyə və digər aspektlərdən yaranan problemlərinin həllində "dövlət-özəl sektor-sahibkarlıq subyektləri" sxemi üzrə əməkdaşlığın gücləndirilməsi, zəruri dövlət dəstəyi mexanizmlərinin işlənməsi və tətbiq olması, institusional tədbirlərin görülməsi, əmtəə və maliyyə bazarlarının inkişaf etdirilməsi, xüsusilə innovasiyalar və texnologiyalar bazarına önəmin artırılması vacib şərtlərdəndir. Əsas etibarı ilə rəqəmsal mexanizmlərdən və texnologiyalardan istifadə etməklə daha yüksək nəticələrin əldə edilməsi mümkünləşə bilər. Ölkə Prezidentinin 26 sentyabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə dövlət proqramı"nın icrası nəticəsində Azərbaycanda rəqəmsal ödənişlərin institusional mühiti xeyli yaxşılaşdırılmış, bu sahədə maddi-texniki bazanın gücləndirilməsi və infrastruktur şəbəkəsinin genişləndirilməsi prosesləri həyata keçirilmişdir [4]. Əlverişli biznes və investisiya mühitinin formalaşdırılmasında dövlət strukturlarında, xüsusilə vergi və gömrük orqanlarında xidmətlərin, hesabatların elektron formaya keçirilməsi, onlayn əməliyyatların və hesabatların mümkünlüyü, şəffaflığın artması, məmur-sahibkar (biznesmen) təmaslarının minimuma endirilməsi, ədalətli rəqabət mühitinin yaradılması üçün tədbirlərin görülməsi diqqət çəkməkdədir. Bundan əlavə, əlverişli biznes mühitinin investorlar və xarici şirkətlər üçün cəlbedici vəziyyətə gətirilməsi üçün, həmçinin biznes proseslərinin səmərəlilyiinin artırılması məqsədilə Azərbaycanda Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi təşkil olunmuşdur. Nəticədə sahibkarlıq subyektləri tərəfindən vergi hesabatları kifayət qədər sadələşdirilmiş formada, "bir pəncərə" prinsipi əsasında həyata keçirilir. Buna görə də əminliklə demək olar ki, əvvəlki illərlə müqayisədə Azərbaycanda sahibkarlıq fəaliyyəti üçün daha əlverişli şərait yaradılmış və biznes mühiti xeyli yaxşılaşdırılmışdır. Vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi auditinin və hesabatlılığının daha səmərəli aparılması, ilk növbədə elektron vasitələrin və rəqəmsal mexanizmlərin sayəsində mümkün olmuşdur. Bu isə ölkəmizdə rəqəmsal texnologiyaların və innovativ yanaşmaların ildən-ilə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

dərinləşməsinin göstəricilərindən biri kimi qiymətləndirilə bilər. Ölkə Prezidentinin 11 oktyabr 2021-ci il tarixli "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanının icrasının təmin edilməsi barədə AR Nazirlər Kabinetinin 2021-ci il 19 oktyabr tarixli qərarına əsasən ölkədə rəqəmsal texnologiyaların daha geniş və intensiv şəkildə tətbiq olunması, regionlarda daxil olmaqla daha çox ölkə ərazisinin genişzolaqlı internetlə təmin olunması tədbirlərinin görülməsi, ümumilikdə innovasiyaların işlənməsi və yüksək texnologiyaların tətbiqi proseslərin sürətləndirilməsi üzrə sistemli tədbirlər müəyyənləşdirilmişdir [5.]. Bir sözlə rəqəmsal bacarıqlar və yanaşmalar, elektron xidmətlər, yüksək texnologiyalar, o cümlədən "ağıllı" texnologiyalar cəmiyyətin və iqtisadiyyatın bütün sahələrində tələbolunandır və sürətlə inkişaf etməkdədir [6]. Maraqlıdır ki, müstəqil mütəxəssislərin apardıqları təhlillərə görə Azərbaycan əhalisinin 53 %-ini rəqəmsal hesab etmək mümkündür və ölkəmizdə çoxlu sayda rəqəmsal portallar və layihələr, internet platformaları fəaliyyət göstərirlər. Bütün bunlar ölkədə sahibkarlığın inkişafında və biznes mühitinin yaxşılaşdırılmasında rəqəmsallaşmanın rolunun nə dərəcədə əhəmiyyətli olmasının ifadəsidir.

**Sahibkarlığın inkişafı ilə bağlı biznes mühitinin yaxşılaşdırılması məsələlərinə müasir baxışlar və onların xüsusiyyətləri**

Sahibkarlığın inkişafı və biznes mühitinin səmərəliliyinin yüksəldilməsi həm də, ilk növbədə menecmentin peşəkarlıq səviyyəsinin yüksək olması anlamına gəlir, yəni əvvəldə qeyd etdiyimiz kimi sahibkarlar – menecerlər başladıqları işin, fəaliyyət sahələrinin gedişini, gəlirliliyini, faydalılığını, onların gözlənilən nəticələrini yüz ölçüb bir biçməli, lazım olan əsaslandırımaları və hesablamaları aparmalı, proqnozlar tərtib etməli, təsərrüfat və ya kommersiya fəaliyyətinin, biznes proseslərinin səmərəlilik məsələlərinə maksimum strateji yanaşmanı təmin etməlidirlər. Başqa sözlə, istehsalın, yaxud istənilən biznes fəaliyyəti istiqamətinin təşkili və inkişaf etdirilməsi proseslərində tələb olunan resurslar balanslaşdırılmalı, onların mənbələri və ehtiyatları uzunmüddətli dövr üçün müəyyənləşdirilməli və proqnozlaşdırılmalı, sahibkarlıq fəaliyyəti istiqamət üzrə analoji bazarlar təhlil olunmalı, marketinq konsepsiyası və ya strategiyası hazırlanmalı, sahibkarlıq subyektinin biznes mühitində davranışları və hərəkəti üzrə məhsuldar və səmərəli mexanizmlər işlənməli, tətbiq edilməli, maksimum əlverişli fəaliyyət üsulları və metodları seçilməlidir. Hər bir sahibkarın, sahibkarlıq subyektinin biznes mühitində əsaslandırılmış və balanslaşdırılmış marketinq konsepsiyasının mövcudluğu vacib şərtlərdən biri kimi baxılmalı və qiymətləndirilməlidir [7]. Bu proseslərdə rəqəmsal texnologiyalardan istifadə daha dəqiq hesablamaların aparılmasına və modelləşdirilməsinə imkan verir. Bundan əlavə, ölkə Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda sahibkarlığın inkişafı hesabına biznes mühitinin yaxşılaşdırılması tədibrlərinin görülməsi geniş mənada nəzərdə tutulmuşdur və hazırda onların icra prosesləri intensiv fazaya keçmişdir [8]. Bu tədbirlərin daha yüksək səviyyədə təşkilində rəqəmsal texnologiyalardan istifadə prioritetlik təşkil etməkdədir.

Hazırkı qlobal şəraitdə sahibkarlığın inkişafının daha səmərəli təşkili və biznes proseslərinin məhsuldarlığının yüksəldilməsi üçün marketinqin müəssisələrin istehsal strukturunda rolunda daha fəal istifadəyə diqqət yetirilməlidir. Bazar şəraitində marketinqin idarəedilməsi əsasən müəssisə daxilində həyata keçirilən makroiqtisadiyyat səviyyəsində keçirilən proseslərlə inteqrasiyası ilə müəyyən edilməlidir. İstehsal strukturlarında marketinq fəaliyyətini uğurlu şəkildə təşkil etmək üçün bazarın seqmentləşdirilməsi əhəmiyyətlidir. Bazarı seqmentləşdirərək istehlakçıların tələbatlarını, davaranışını, məhsulun satışının



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təşkilini, rəqabət mühitini, rəqabətə davamlılığını ətraflı öyrənmək mümkün olur [9]. Eyni zamanda, bu halda sahibkarın, onun formalaşdırdığı menecment heyətinin ali vəzifəsi bazardakı, tələb və təklifin obyektiv olaraq araşdırılması, istehsalın inkişaf səviyyəsinin mövcud konyunkturaya və uzunmüddətli perspektivə hesablanmış fəaliyyət mexanizmlərinin hazırlanması, istehsalın təkmilləşdirilməsi və strukturunun diversifikasiyalaşdırılması, istehsal olunan məhsulların və ya göstərilən xidmətlərin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi təmin olunmalıdır. Biznes proseslərində, beynəlxalq kommersiya əməliyyatlarında və mübadilələrində, xarici iqtisadi əlaqələr üzrə aparılan əməliyyatlarda maksimum səmərəliliyin təmin olunması sahibkarlıq fəaliyyətinin işinin son nəticəsinin faydalı olmasının nəticəsi kimi baxılmalı və qiymətləndirilməlidir. Xüsusilə, regionlarda xüsusilə kənd yerlərində sahibkarlığın inkişafı və biznes mühitinin yaxşılaşdırılması üçün bir qrup təsirli tədbirlərin görülməsi müsbət səmərə verə bilərdi. Kənd yerlərində sahibkarlığın inkişafı və biznes mühitinin daha səmərəli təşkili məqsədilə, ilk növbədə vergi güzəştlərindən məqsədli şəkildə istifadə olunmalı və buradakı fəaliyyət subyektlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməlidir [10]. Bundan əlavə, sahibkarlıq və biznes subyektlərinin yüksək texnologiyalara əlçatanlığı, infrastrukturun yaradılması ilə bağlı dövlət tərəfindən kompleks tədbirlərin görülməsi təmin olunmalı və kadr hazırlığı diqqət mərkəzində saxlanılmalıdır.

Sahibkarlığa dövlət köməyinin və dəstəyinin mühüm istiqamətləri kimi müasir və güclü infrastrukturun formalaşdırılması, sahibkarlıq fəaliyyətinin intensivləşdirilməsinə və səmərəliliyinin yüksəldilməsinə imkan verən dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi, sahibkarlıq subyektlərinə maliyyə, maddi, elmi-texniki və informasiya rersurslarının əldə etmələri məqsədilə güzəştlərin müəyyənləşdirilməsi və tətbiq olunması, sahibkarlıq fəaliyyətinin müxtəlif istiqamətləri üzrə tələb olunan kadrların hazırlanması, sahibkarlıq subyektlərinin və fərdi sahibkarların xarici ticarət fəaliyyəti sahəsində təcrübə toplamalarına və xarici bazarlara çıxışlarına köməkliyin göstərilməsi, sahibkarlığın inkişafına mane olan problemlərin aradan qaldırılması və bu sahədə səmərəliliyin artırılmasına imkan verən biznes mühitinin yaradılması və s. daha çox diqqət çəkirlər. Bu tədbirlərin strateji səviyyədə olan hədəflərə uyğun şəkildə yerinə yetirilməsi məqsədilə, dövlət strukturlarına və orqanlarına müvafiq tapşırıqlar verilmiş, ölkənin mərkəzi şəhərləri ilə yanaşı, regionlarda biznes mühitinin daha əlverişli şərtlərlə inkişaf etdirilməsi tədbirlərinin görülməsinə və sahibkarlıq fəaliyyətinin dah da genişləndirilməsinə xüsusi önəm verilmişdir. Bunlarla yanaşı, sahibarklığın və biznesin inkişafı proseslərində tələb olunan şərtlərin və mexanizmlərin müasir dövrün tələblərinə uyğunluğu məsələlərinə daha çox önəm verilməlidir. Məsələn, sahibkarlığın sabit inkişafında və biznes mühitinin səmərəli olmasında optimal vergi sisteminin və ölkədə mövcud olan vergi yükünün səviyyəsi vacib şərtlərdəndir. Bu baxımdan, dövlət tərəfindən həmin məsələlərin vaxtında və uzunmüddətli perspektiv inkişaf meyilləri nəzərə alınmaqla tənzimlənməsi lazım gəlir. Eyni zamanda, müasir qlobal səmtlər, sahibkarlığın inkişafına təsir imkanı genişlənən amillər, milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərindəki transformasiyalar əsas götürülməklə, sahibkarlıq və biznes subyektlərinin tətbiq olunan mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi tədbirlərinə daha geniş yer verilməlidir [11]. Bir sözlə, sahibkarlığın inkişafı istiqamətində biznes mühitinin müasir dövrün çağrışları nəzərə alınmaqla, mövcud problemlərin yaranma səbəbləri araşdırılmalı, preventiv və perspektiv tədbirlər müəyyənləşdirilməli, onların icra mexanizmləri işlənib hazırlanmalı, praktiki fəaliyyət proseslərinin məhsuldarlığına nail olmaq üçün strateji aspektlər kompleks şəkildə diqqət mərkəzində saxlanılmalıdır.

Azərbaycanda sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılması ilə əlaqədar olaraq, son illərdə görülən tədbirlərin intensivliyi və səmərəliliyi xüsusilə fərqlənirlər. Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş mühüm sənəddə -



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə bu sahədə strateji hədəflər müəyyənləşdirilmişdir [12]. Bu hədəflərin yerinə yetirilməsi işlərində fəal şəkildə elektron xidmətlərdən və rəqəmsal mexanizmlərdən istifadə olunmaqdadır.

**Azərbaycanda sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılması proseslərində rəqəmsal mexanizmlərin rolunun artırılması istiqamətləri**

Ölkəmizdə sahibkarlığın inkişafı istiqamətində zəruri tədbirlərin görülməsi, bütün bunların dövlətin iqtisadi siyasətində yüksək səviyyədə nəzərə alınması, ümumilikdə sahibkarlığın inkişafı problemlərinə yanaşmaların müasir dövrün çağırışları kontekstində baxılması mühüm əhəmiyyət kəsb edir. Belə ki, müasir dövrdə sahibkarlıq ictimai-sosial və iqtisadi proseslərin cəmiyyət və iqtisadiyyat subyektləri tərəfindən eyni halda məmnunluqla qarşılanmasında, qəbul olunmasında əhəmiyyətli funksiyaları yerinə yetirir. Bu baxımdan, professor A.Şəkərəliyev qeyd edir ki, Azərbaycan iqtisadiyyatı müasir dövrdə şaxələndirmə, başqa sözlə diversifikasiyalaşdırma dövrünü yaşayır, ölkə iqtisadiyyatının dayanıqlı inkişafının başlıca istiqamətlərindən biri iqtisadiyyatın ayrı-ayrı istehsal sahələrinin diversifikasiyasıdır, bu məqsədlə iqtisadiyyatın qeyri-neft sektorunun regionların, kiçik və orta sahibkarlığın inkişafının təmin olunması, iqtisadiyyatın intellektual və texnologiyalar bazasının səviyyəsinin yüksəldilməsinin stimullaşdırılması məsələlərinə daha çox önəm verilməlidir [13]. Bundan əlavə, sahibkarlığın inkişaf etdirilməsi proseslərində şəffaflığın rolunun artırılması da aktual məsələlərdən biri kimi diqqət çəkməkdədir. Professor Z.F.Məmmədov belə hesab edir ki, məhz vergilər sistemində rəqəmsal sahədə innovativ yeniliklərin tətbiqi ilə vergi orqanlarının fəaliyyətində tam şəffaflıq bərpa olunub, vergi inzibatçılığı təkmilləşdirilib, korrupsiya elementləri ortadan götürülüb [14].



Azərbaycanda son illərdə iqtisadiyyatda şəffaflığın artırılması, sahibkarlıq fəaliyyətinin gücləndirlməsi və biznes mühitinin daha əlverişli vəziyyətə gətirilməsi məsələlərinə strateji səviyyədə baxılır və sahibklarlığın güzəştli maliyyələşmə mexanizmlərinə xüsusi önəm verilir, bu sahədəki mövcud mexanizmlərin təkmilləşdirilməsi tədbirləri görülür. Məsələn ölkə Prezidentinin 31 iyul 2018-ci il tarixli Fərmanına əsasən əvvəllər İqtisadiyyat Nazirliyinin tərkibində fəaliyyət göstərən Sahibkarlığa Kömək Milli Fondu ləğv olunmuş əvəzində isə Sahibkarlığın İnkişaf Fondu publik hüquqi şəxsi yaradılmışdır. Bu Fərmanın reallaşdırılması ilə bağlı prioritet tədbirlər sırasında qeyri-neft sektorunda müasir və məhsuldar texnologiyalara əsaslan yeni istehsal emal və infrastruktur müəssisələrinin yaradılması, həmçinin özəl subyektlərin maliyyə resurslarına əlçatanlığının təmin edilməsi məsələlərinə daha çox önəm verilmişdir. Bu Fondun vəsaitindən istifadə Qaydasında qeyd edilir ki, Fondun vəsaiti ölkənin sosial-iqtisadi inkişafı çərçivəsində strateji əhəmiyyət kəsb edən sahələrin inkişafı, xüsusilə, qeyri-neft sektorunun inkişafı, innovativ texnologiyaların tətbiqi və ixrac əməliyyatları üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilir. Bundan əlavə, Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları yenilənmiş və əvvəldə bildirdiyimiz kimi məhz bunların tətbiqi nəticəsində çevik maliyyələşmə mexanizmləri, ucuz resurslara çıxışın təmin olunması, biznesin inkişafının genişləndirilməsi maliyyə probleminin həll edilməsi və s. bu kimi problemlərin həlli istiqamətində zəruri addımların atılması mümkün olacaqdır. Belə bir Fondun strukturunun təkmilləşdirilməsi və fəaliyyət potensialının artırılması üçün əlavə tədbirlərin görülməsi ölkəmizdə sahibkarlığın inkişafına güclü təkan verməklə bərabər, eyni zamanda, bu istiqamətdə dünya təcrübəsinin daha fəal tətbiqi və sahibkarlığın inkişafında müasir məhsuldar mexanizmlərin hazırlanaraq həyata keçirilməsi tələb olunur. Sahibkarlara kömək milli fondunun strukturunun təkmilləşdirilməsi, yeni işlək mexanizmlərin yaradılması daha pozitiv fəaliyyətin təşkilinə, iqtisadiyyatın müxtəlif sahələrində sahibkarların rolunun

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yüksəldilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, bu mühitin iştirakçılarının məhsuldar fəaliyyətinə əlverişli potensial formalaşdıracaqdır. Bundan əlavə, yeni qaydaların tətbiqi sahibkarların güzəştli maliyyə resurslarına çıxışının, eləcə də qeyri-neft istehsalının və ixracının genişlənməsinə, istehsal xərclərinin azaldılmasına, məhsulun maya dəyərinin aşağı düşməsinə, yeni istehsal sahələrinin yaradılmasına, özəl bölmənin dövlət dəstək mexanizmlərindən daha geniş istifadəsinə imkan yaradacaqdır. Eyni zamanda sahibkarlığın güzəştli maliyyə mexanizmlərinin hazırlanması və fəal şəkildə tətbiq edilməsi ilə bağlı məsələlərdə Fondun fəaliyyət prinsiplərinin təkmilləşdirilməsi diqqət çəkir. Bu Fondun vəsaiti hesabına ölkənin müxtəlif regionlarında sahibkarlığın inkişafına əsaslı təkan verilmiş və səmərəli biznes mühiti formalaşdırılmışdır. Belə ki, regionlarda istehsal və emal sahələrinin inkişaf etdirilməsi istiqamətində, həmçinin turizmin inkişafına yönəldilən kreditlərin hesabına hər il nisbi artım müşahidə olunur, eyni zamanada sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi məqsədilə ayrılmış kreditlərin təyinatı üzrə istifadəsinə əməl olunması, bunun üçün nəzarət mexanizmlərinin və monitorinqlərin həyata keçirilməsi qaydaları işlənib hazırlanmış və həyata keçirilməkdədir [15.].

Sahibkarlıq subyektlərinin son illərdə fəal şəkildə xarici bazarlara çıxması, xarici ticarət fəaliyyəti ilə məşğul olmaları üçün dəstək mexanizmlərinin göstərilməsi və sahibkarların işgüzar əlaqələrinin inkişaf etdirilməsi, genişləndirilməsi tədbirlərini də təqdirəlayiq saymaq mümkündür. Belə ki, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu tərəfindən müxtəlif biznes forumların, sərgilər və seminarların, konfransların keçirilməsi sayəsində biznes mühitinin və iqtisadi potensialın təbliği, iqtisadi fəallığın artırılması, xarici işgüzar əlaqələrin yaradılması və inkişaf etdirilməsi istiqamətində səmərəli tədbirlər görülməkdədir [16]. Bunlarla bərabər, sahibkarlığın rəqəmsal texnologiyalar əsasında inkişafının intensivləşdirilməsində və zəruri tədbirlərin yerinə yetirilməsində maliyyə aspektlərinin rolu həlledici əhəmiyyət daşıyır və bu məsələlər həll edilmədən sahibkarlıq layihələrinin reallaşdırılması qeyri-mümkündür. Eyni zamanda, ölkəmizdə milli iqtisadiyyatın neftdən asılılığının azaldılması, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, iqtisadi artımın daha məhsuldar və uzunmüddətli dövr üçün perspektivlərə malik mənbələrinin formalaşdırılması, qeyri-neft sektorunda innovatik texnologiyalara əsaslan yeni istehsal emal və infrastruktur müəssisələrinin yaradılması, bundan əlavə, özəl sahibkarlıq subyektlərin maliyyə resurslarına əlçatanlığının təmin edilməsi məsələləri dövlətin xüsusi diqqət mərkəzindədir. Belə ki, prioritet fəaliyyət istiqamətləri nəticəsində sahibkarların əsaslandırılmış investisiya-innovasiya layihələrinin daha çevik şəkildə qiymətləndirilməsi və maliyyələşdirilməsi, həmin subyektlərə dəstəyin göstərilməsi, biznes mühitinin, o cümlədən rəqabət mühitinin tələblərinə uyğun şəkildə fəaliyyət strategiyasının formalaşdırılması bazar konyunkturunun öyrənilməsi, iri biznes layihələrinin işlənib hazırlanmasına köməkliklərin göstərilməsi, həmçinin xarici iqtisadi fəaliyyətin genişləndirilməsi ilə bağlı tədbirlərin görülməsi, ölkədə sahibkarlığın bazar və innovasiya infrastrukturunun formalaşması və inkişafına real dəstəyin göstərilməsi daha çox səmərəli tədbirlər kimi xarakterizə olunurlar. Aparılan davamlı işlər, sahibkarlığın inkişafına strateji yanaşmaların təmin olunması, strateji yol xəritəsi çərçivəsində biznes mühitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər öz bəhrəsini verməkdədir. Bundan başqa, həmin strateji hədəflərə çatmaq məqsədilə tələb olunan struktur dəyişikliklərinə və institusional islahatların dərinləşdirilməsi tədbirlərinə başlanılmışdır. Belə ki, ölkə Prezidentinin 26 iyun 2018-ci il Fərmanı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi tədbiləri müəyyənləşdirilmiş və hökümətin müxtəlif strukturlarına mühüm tapşırıqlar verilmişdir. Bu sahədə dövlət dəstəyi mexanizmlərin yenilənməsi və müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi məqsədilə ölkəmizdə sahibkarlığın inkişafında tətbiq olunan dövlət dəstəyi mexanizmlərinin əhəmiyyətli



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

hissəsi yenilənmiş və ya həmin mexanizmlərin daha məhsuldarları ilə əvəz olunması vacibliyi müəyyənləşdirilmişdir [17.]. Sahibkarlıq subyektlərinin və biznes prosesləri iştirakçılarının ucuz kredit resurslarına çıxışının təmin olunması, maliyyə əlçatanlığı tədbirlərinin görülməsi məqsədilə ölkə Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı ilə Kredit Zəmanət Fondu yaradılmış və bu Fondun fəaliyyət mexanizmləri hazırlanmışdır [18].

**Nəticə**

Ölkəmizdə sahibkarlığın inkişafı proseslərində yeni addımların atılması, biznes mühitinin rəqəmsallaşdırılması proseslərinin sürətləndirilməsi sayəsində investisiya cəlbediciliyinin yüksəldilməsi, ümumilikdə iqtisadi fəallığının artmasına və mövcud iqtisadi mexanizmlərinin təkmilləşdirilməsinə imkan vermişdir. Belə ki, görülən sistemli tədbirlər, həmçinin qeyri-neft sektorunun inkişafında və onun potensialından milli iqtisadiyyatın strukturunun təkmilləşidirilməsində sahibkarlıq subyektlərinin fəaliyyətinə strateji yanaşmaların təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsi mexanizmlərinin fəal şəkildə tətbiq olunması nəticəsində strateji yol xəritələri çərçivəsində nəzərdə tutulan hədəflərə çatma istiqamətində önəmli addımlar atılmışdır və bunlar özünü real iqtisadi proseslərdə və fəaliyyətdə ifadə etmişdir. Yaxın perspektivdə isə bu proseslərin daha da inkişaf etdirilməsi və biznes mühitinin rəqəmsallaşdırılmasının sürətləndirilməsi məqsədilə bir qrup məsələlərə diqqət artırılmalıdır:

- ölkəmizdə strateji yol xəritəsində sahibkarlığın inkişafı proseslərində biznes mühitinin yaxşılaşdırlması hədəfini reallaşdırmaq üçün rəqəmsal mexanizmlərin daha fəal şəkildə tətbiq olunması vacibdir;
- ölkə iqtisadiyyatında sahibkarlığın inkişafı ilə bağlı dövlət dəstəyi mexanizmlərinin stimullaşdırıcı effekti daha da artırılmalı və sahibkarlığın inkişafında, güclənməsində bazar iqtisadiyyatı mexanizmlərinin təməl prinsilərinə əməl olunmasına ciddi önəm verilməlidir;
- sahibkarlığın inkişafı istiqamətində biznes mühitinin daha yüksək səviyyəyə qaldırılması tədbirlərində əsas yeri yüksək texnologiyalar və innovasiyalar infrastrukturunun yaradılmasına verilməsi ön plana çəkilməli, bu sahədə dünya ölkələrinin təcrübəsinə diqqət artırılmalı, sahibkarlıq və biznes subyektlərinin iqtisadi fəaliyyət və biznes strategiyalarının əsasında dayanıqlı iqtisadi inkişafa, iqtisadi artıma və məhsuldarlığın artırılmasına imkan verən mexanizmlərə daha çox yer verilməli və bunlarla bağlı davamlı və təsirli tədbirlər həyata keçirilməlidir;
- qlobal təzyiqlər və COVİD-19 pandemiyasının mənfi təsirindən irəli gələn amillər nəzərə alınmaqla biznes mühitinin rəqəmsallaşdırılması infrastrukturunun, xüsusilə regionlarda genişzolaqlı internet şəbəkəsinin yaradılması tədbirləri həyata keçirilməlidir.



**Ədəbiyyat**

1. Городнова, Н.В. Развитие цифровой экономики: теория и практика / Н. В. Городнова // Вопросы инновационной экономики. – 2021. – Том 11. – № 3. – С. 911–928.
2. Грачев, С.А. Моделирование влияния цифровизации на развитие социально-экономических систем / С.А. Грачев // Вопросы инновационной экономики. – 2021. – Том 11. – № 2. – с. 443–454.
3. Дудин, М. Н. Тенденции, возможности и угрозы цифровизации национальной экономики в современных условиях / М.Н. Дудин, С.В. Шкодинский //

Экономика, предпринимательство и право. – 2021. – Том 11. – № 3. – с. 689–714.
4. 2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə dövlət proqramı. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli 508 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
5. Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə. Bakı şəhəri, 19 oktyabr 2021-ci il.
6. Azərbaycanda rəqəmsal gələcək üçün rəqəmsal bacarıqlar inkişaf etdirilməlidir. 30-06-2021. https://www.euneighbours.eu/az/east/eu-in-action/stories/azrbaycanda-rqmsal-glck-ucun-rqmsal-bacariqlar-inkisaf-etdirilmlidir.
7. Абдрахманова Д.М., Егорова М.С. Предпринимательство и бизнес: понятие и сущность // Молодой ученый, 2015, №11.4, –с. 1-2
8. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin Fərmanı Bakı şəhəri, 29 yanvar 2019-cu il, №500.
9. Xəlilova, S.A. İstehsal strukturlarının marketinq idarəedilməsinə təsiri və iqtisadi qiymətləndirilməsi // "Kooperasiya elmi-praktiki jurnalı, №4 (51), 2018, - s. 61-66.
10. Шодибоева, М.К. Проблема развития частного предпринимательства и малого бизнеса в сельской местности // Молодой ученый, 2016, №5, - с.457-459., s.458.
11. Сатторкулов, О.Т., Обидов Р.А., Турдикулова Ш.О. Роль и значение малого бизнеса и частного предпринимательства в современных условиях // Молодой ученый. – 2015. №2. – с. 315-318.
12. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
13. Şəkərəliyev, A.Ş., Şəkərəliyev; Q.A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: "Turxan" NPB, 2016, – 536 s.
14. Rəqəmsallaşma şəffaflıq, mükəmməl inzibatçılıq və korrupsiyanın sonu deməkdir 11 oktyabr 2019. https://vergiler.az/news/taxes/4747.html.
15. Sahibkarlığın güzəştli maliyyələşmə mexanizmi. https://www.economy.gov.az/article/guzeshtli-maliyeleshme-mexanizmi/21392.
16. Sahibkarların işgüzar əlaqələrinin inkişafı və ixrac imkanlarının dəstəklənməsi. https://www.economy.gov.az/article/sahibkarlarin-ishguzar-elaqelerin-inkishafi/21390#.
17. Azərbaycan Respublikasında sahibkarlığın inkişafında dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 31 iyul 2018.
18. Kredit Zəmanət Fondunun yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri, 15 sentyabr 2017-ci il.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Рашад Афлатун оглы Гараев***

***Резюме***

***Направления цифровизации бизнес-среды в процессах развития предпринимательства в соответствии со стратегической дорожной картой***

*Цель исследования – состоит из определения эффективности и основных направлений цифровизации бизнес-среды в процессах развития предпринимательства в соответствии со стратегической дорожной картой. В процессах совершенствования бизнес-среды важнейшим фактором является повышение эффективности бизнес-проектов и конечные результаты. Цифровизация в этих процессах отличается продуктивностью и практически во всех отраслях национальной экономики идут интенсивные работы по углублению цифровизации. Применение высоких технологий, в первую очередь, цифрового механизма, открывает новые возможности развития предпринимательства. Цифровые технологии оказывают положительное воздействие на повышение производительности и на оптимизацию расходов. Обосновано углубление направления развития цифровых механизмов на основе высоких технологий в процессах повышения эффективности предпринимательской деятельности. Методология исследования – использованы методы анализа и синтеза, сравнения, статистические методы. Одновременно, учтены методологические подходы и способы, отражённые в научных трудах разных учёных и исследователей по вопросам цифровизации бизнес-среды и процессов развития предпринимательства. Практическая значимость исследования – полученные результаты и научные составляющие могут быть использованы в подготовке и реализации комплексных мероприятий и механизмов ускорения цифровизации в бизнес-среде и процессах развития предпринимательства Азербайджана. Результаты исследования – подготовлены обоснованные эффективные подходы и механизмы по интенсификации цифровизации в процессах развития бизнеса и предпринимательской деятельности в соответствии с целями стратегической дорожной карты. Оригинальность и научная новизна исследования – оригинальность статьи заключается в том, что в исследовании, в основном, даны материалы аргументированные и обоснованные в соответствии с действенными реалиями в сфере предпринимательской деятельности и бизнес-среды. Обоснована важность обеспечения концептуального подхода и осуществление комплексных мероприятий по углублению цифровизации бизнес-среды и процессов предпринимательской деятельности в Азербайджане. Рассмотрены и аргументированы важнейшие вопросы по активному применению цифровых механизмов для повышения эффективности предпринимательской деятельности и бизнес-среды в условиях интенсивного развития высоких технологий в современном периоде.*

***Ключевые слова:*** *стратегическая дорожная карта, предпринимательство, бизнес-среда, цифровые технологии, цифровые механизмы, электронные услуги, «умные» технологии, высокие технологии.*



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

***Rashad Aflatun Garayev***

***Summary***

***Directions of digitization of business environment in the process of entrepreneurship development in accordance with the strategic road map***

*Purpose of the research – The aim of the study is to determine the effectiveness and main directions of digitalization of the business environment in the processes of enterprise development in accordance with the strategic road map. In business improvement processes, the most important factor is the improvement of business project efficiency and results. Digitalization in these processes is characterized by productivity and intensive work is underway in almost all sectors of the national economy to deepen digitalization. The use of high technologies, primarily the digital mechanism, opens up new opportunities for the development of entrepreneurship. Digital technologies have a positive impact on productivity and cost optimization. It is justified to deepen the direction of development of digital mechanisms based on high technologies in the processes of increasing the efficiency of entrepreneurial activity. Research methodology – analysis and synthesis methods, comparisons, statistical methods are used. At the same time, methodological approaches and methods reflected in the scientific works of various scientists and researchers on the digitalization of the business environment and processes for the development of entrepreneurship are taken into account. The practical importance of a research – the obtained results and scientific components can be used in the preparation and implementation of complex measures and mechanisms to accelerate digitalization in the business environment and processes of entrepreneurship development of Azerbaijan. The results of the research – well-founded effective approaches and mechanisms for intensifying digitalization in business and entrepreneurial development processes have been prepared in accordance with the goals of the strategic road map. The originality and scientific novelty of the study - the originality of the article is that the study mainly provides materials that are reasoned and justified in accordance with effective realities in the field of entrepreneurial activity and the business environment. The importance of ensuring a conceptual approach and implementing comprehensive measures to deepen the digitalization of the business environment and business processes in Azerbaijan is justified. The main questions on active application of digital mechanisms to increase efficiency of entrepreneurial activity and business environment in conditions of intensive development of high technologies in the modern period are considered in the end of the article.*

***Key words:*** *strategic road map, entrepreneurship, business environment, digital technologies, digital mechanism, electronic services, "smart" technologies, high technologies.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 10.12.2021.***
***Çapa qəbul olunub: 15.12.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*